# Bioqrafiya

## Zərifə xanım Əliyeva

Zərifə xanım 1923-cü il aprelin 28-də Naxçıvan Muxtar Respublikasının indiki Kəngərli rayonunun Şahtaxtı kəndində, dövrünün görkəmli dövlət xadimi və səhiyyə təşkilatçısı Əziz Məmmədkərim oğlu Əliyevin və Leyla Əliyevanın ailəsində anadan olmuşdur. Həmin ilin mayında Əziz Əliyevin ailəsi Bakıya köçmüşdür. Zərifə xanım 1942-ci ildə orta məktəbi bitirmiş, Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki Azərbaycan Tibb Universiteti) müalicə-profilaktika fakültəsinə daxil olmuş, 1947-ci ildə institutu fərqlənmə diplomu ilə başa vurmuşdur.

İki il Moskva şəhərində Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda ixtisaslaşma kursu keçərək həkim-oftalmoloq ixtisasına yiyələnmiş, Vətənə qayıdaraq 1949-cu ildən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda həkim-ordinator, elmi işçi və böyük elmi işçi vəzifələrində çalışmışdır. 1950-1953-cü illərdə Zərifə xanım Əliyeva həmin institutun aspiranturasında təhsil almışdır. 1953-1957-ci illərdə Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi vəzifəsində işləmişdir.

1954-cü ildə Heydər Əliyevlə ailə həyatı qurmuşdur. 1955-ci ildə qızları Sevil Əliyeva, 1961-ci ildə isə oğulları İlham Əliyev dünyaya gəlmişdir.

Zərifə xanım Əliyeva 1960-cı ildə “Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi” mövzusunda namizədlik dissertasiyasını müdafiə etmiş, tibb elmləri namizədi elmi dərəcəsinə layiq görülmüşdür. Zərifə xanımın təklif etdiyi müalicə metodu tezliklə bütün respublikada tətbiq edilmişdir. Azərbaycanda traxomanın sosial xəstəlik kimi ləğvi məhz Zərifə xanımın adı ilə bağlıdır. Görkəmli alim vərəm, şəkərli diabet və qlaukoma kimi xəstəliklər nəticəsində gözün zədələnmə xüsusiyyətlərinin öyrənilməsi problemlərini də tədqiq etmişdir.

1963-cü ildə Zərifə xanım Əliyeva “Oftalmologiya” ixtisası üzrə böyük elmi işçi, 1967-ci ildə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasının dosenti olmuş, 1969-cu ildə görmə orqanının peşə patologiyası laboratoriyasının müdiri vəzifəsində çalışmışdır.

Zərifə xanım Əliyeva 1976-cı ildə gözün peşə xəstəlikləri problemini tədqiq edərək “Azərbaycanın bəzi kimya sənayesi müəssisələri işçilərində görmə orqanının vəziyyəti” mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək, tibb elmləri doktoru elmi dərəcəsi almışdır. O, 1977-ci ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasının professoru vəzifəsinə seçilmişdir.

1977-ci ildə professor Zərifə xanım Əliyevanın təşəbbüsü ilə Bakıda ilk dəfə Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilmişdir.

Zərifə xanım Əliyeva 1979-cu ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasının professoru seçilmişdir. Həmin ildə Azərbaycan Elmlər Akademiyasının Fiziologiya İnstitutunda Zərifə xanımın təşkilatçılığı ilə görmə orqanının peşə patologiyasının öyrənilməsi üzrə ilk ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyası yaradılmışdır. Bu laboratoriyada az intensivli zəhərli istehsal sahələrində görmə orqanına fizioloji, klinik, funksional, histoloji mexanizmlərin təsirinin öyrənilməsi üzrə qiymətli tədqiqatlar aparılmışdır.

Tədqiqatların nəticəsi olaraq Zərifə xanım Əliyeva “Şin istehsalında gözün peşə patologiyası”, “Xroniki yod intoksikasiyası ilə bağlı oftalmologiya”, “Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası” monoqrafiyalarını çap etdirmişdir.

1981-ci ildə oftalmologiyanın inkişafında yüksək xidmətlərinə - görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqatlara görə professor Zərifə xanım Əliyeva oftalmologiya sahəsində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. Zərifə xanım Əliyeva həmin mükafata layiq görülən ilk qadın alimdir.

Zərifə xanım Əliyeva həmçinin qlaukomamn etimologiyası, diaqnostikası və müalicəsi məsələlərinə aid tədqiqatlar aparmış, bir sıra elmi məqalələr və iki monoqrafiya - “Gözün hidro-dinamik sisteminin anatomo-fizioloji xarakteristikası” və “Yaşla bağlı gözün əsəb yollarının dəyişməsi” monoqrafiyalarını çap etdirmişdir.

O, xəstəliyin diaqnostikasının yeni istiqamətdə inkişafını (gözün əlvan təbəqəsində dəyişikliyi, iridodiaqnostikanı) ilk dəfə tədqiq edən alimlərdəndir və bu mövzuya bir sıra elmi məqalələr həsr etmişdir. Zərifə xanım Əliyeva həkimlərin iş təcrübəsində əvəzolunmaz elmi vəsait hesab edilən “İridodiaqnostikanın əsaslari”, “Terapevtik oftalmologiya” adlı əsərlərin həmmüəlliflərindəndir.

Zərifə xanım Əliyeva səhiyyədə kadr hazırlığı və həkimlərin ixtisasının təkmilləşdirilməsi sahəsində də səmərəli fəaliyyət göstərmiş, onun birbaşa rəhbərliyi altında cavan alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmişdir. Onun yazdığı “Yüksək etimad” adlanan kitabı cəmiyyətdə həkimin şəxsiyyət kimi formalaşması prosesinə dəyərli töhfə hesab edilir.

1982-1985-ci illərdə Əziz Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya kafedrasının müdiri vəzifələrində çalışmışdır.

O, 1980-ci ildə Azərbaycanın “Əməkdar elm xadimi” fəxri adına layiq görülmüşdür. Görkəmli alim 1983-cü ildə Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Görkəmli alim kimi Zərifə xanım Əliyeva oftalmologiyanın problemlərinə aid 150-yə yaxın məqalənin,14 monoqrafiyanın, 1 ixtiranın, 12 səmərələşdirici təklifin müəllifidir.

1982-ci ildə Heydər Əliyevin SSRİ Nazirlər Sovetinin sədrinin birinci mavini vəzifəsinə təyin olunması və Sov. İKP MK Siyasi Bürosunun üzvü seçilməsindən sonra ailəsi Moskvada yaşamışdır. Bundan sonra Zərifə xanım Əliyeva bir müddət SSRİ Tibb Elmlər Akademiyasında işləmişdir.

Akademik Zərifə xanım Əliyeva ictimai fəaliyyətlə də məşğul olmuş, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, “Bilik” Cəmiyyəti İdarə Heyətinin və keçmiş İttifaqın Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur. Eyni zamanda “Вестник офтальмологии” ümumittifaq jurnalının redaksiya heyətinin üzvü idi.

Elmi və ictimai fəaliyyəti ilə yanaşı, Zərifə xanım Əliyeva eyni zamanda qayğıkeş ana, vəfalı ömür-gün yoldaşı olmuşdur.

Zərifə xanım Əliyeva Vətən və xalq qarşısında göstərdiyi misilsiz xidmətlərə, çoxillik elmi-tədqiqat işlərinə görə orden və medallarla təltif olunmuş, bir sıra müəssisələrə, məktəblərə, küçələrə, parklara adı verilmiş, xatirəsinə memorial abidələr ucaldılmışdır.

Zərifə xanım Əliyeva 1985-ci il aprelin 15-də 62 yaşında Moskva şəhərində vəfat etmiş, Novo-Deviçye qəbiristanlığında torpağa tapşırılmışdır. 1994-cü ildə cənazəsi Bakıya gətirilərək Fəxri Xiyabanda atası Əziz Əliyevin və qardaşı Tamerlan Əliyevin məzarları yanında dəfn edilmişdir.